# MÜNDƏRİCAT

Azərbaycanda feodal münasibətlərinin yaranması...............................3

Sasanilər və Azərbaycan .......................................................................5

Cənubi Qafqaz uğrunda Sasani-Roma mübarizəsi..............................7

Məzdəkilər hərəkatı..............................................................................10

Girdiman (Aqvan) knyazlığı..................................................................11

AZƏRBAYCAN ƏRƏB XİLAFƏTİNİN TƏRKİBİNDƏ ...........................13

Xilafət əleyhinə ilk çıxışlar. ...................................................................24

Xürrəmilər hərəkatı...............................................................................25

Azərbaycan xalqının təşəkkülü ............................................................32

**FEODAL DÖVLƏTLƏR**

Şirvanşahlar........................................................................................35
Sacilər....................................................................................................38
Salarilər..................................................................................................40
Rəvvadilər...............................................................................................41
Şəddadilər...............................................................................................42
Slavyanların qarətçi yürüşləri ..............................................................44
Memarlıq................................................................................................47

## AZƏRBAYCAN III-VII ƏSRLƏRDƏ

**Azərbaycanda feodal münasibətlərinin yaranması.**

❖ III-V əsrlərdə Azərbaycanda feodal münasibətləri yaranmağa başladı. Feodal münasibətlərinin təşəkkülü prosesində torpaqların bir hissəsi ali zümrənin mülkiyyətinə keçdi. Azərbaycanda formalaşmaqda olan feodal münasibətləri Qərbi Avropadakı feodal münasibətlərindən bir sıra cəhətlərinə görə fərqlənirdi.

❖ Əsas fərqlər bunlardır:

1) Azərbaycanda feodalların şəxsi təsərrüfatı əsasən yox idi. Çünki süni suvarma şəraitində bu əlverişli deyildi.
2) Kəndlilər asılı olsalar da, təhkimli deyildilər.
3) Avropada feodal münasibətləri gec yaranıb (V əsr), tez süqut etdiyi (XVII əsrin ortaları) halda, Azərbaycanda tez yaranıb (III əsr), gec süqut etmişdir (XIX əsr).

❖ Azərbaycanda feodal torpaq sahibliyinin 2 əsas forması var idi:

1. Dastakert. Bu, irsi torpaq mülkü idi. Onun sahibi olan iri feodal patrik adlanırdı. Zərdüşti kahinləri də iri torpaq sahələrinə malik idilər.
2. Xostak. Bu, şərti torpaq sahibliyi idi. Onun sahibi olan orta və xırda feodalları azadlar adlandırırdılar.

❖ Əvvəllər "azad icmaçı" mənasını verən dehqan indi torpaq sahibi mənasında işlənirdi.

❖ Kəndli istismarının əsas forması vergi və mükəlləfiyyətlər idi. Sasanilər dövlətində:

1. xaraq (xərac) adlanan torpaq vergisi və
2. gezit adlanan can vergisi əsas yer tuturdu.

❖ Xərac məhsulun üçdəbirindən altıdabirinə qədərini təşkil edirdi.

❖ Gezit vergisi ildə bir dəfə xristianlardan və sənətkarlardan alınırdı.

❖ Sasani şahı I Xosrov (531-579) vergi toplanmasında məmur özbaşınalığını azaltmaq və toplanan vəsaitin xəzinəyə daxil olmasını təmin etmək üçün vergi islahatı keçirdi.

❖ Bu zaman torpaqlar ölçüldü, xurma və zeytun ağacları hesaba alındı.

❖ Uşaqlar, qadınlar və yaşı altmışı keçmiş kişilər can vergisindən azad edildilər.

❖ Vergilər hissələrə bölünərək üç dəfəyə ödənilməli idi.

❖ Vergi əvvəlki kimi məhsulun həcminə görə deyil, torpağın sahəsinə görə alınırdı.

❖ Bu isə quraqlıq illərində əhalinin vəziyyətini daha da ağırlaşdırırdı.

# Sasanilər və Azərbaycan

❖ Albaniyanı b.e.ə. II əsrdən başlayaraq hökmdar Aranın nəslindən olan yerli hökmdarlar, I əsrdən etibarən isə Arşakilər sülaləsinin nümayəndələri idarə edirdilər.

❖ Onlar Albaniyanı müəyyən fasilələrlə 510-cu ilə qədər idarə etmişlər.

❖ Sasanilər sülaləsinin nümayəndəsi Ərdəşir Babəkan 226-cı ildə İranda Parfiya dövlətini süquta uğradaraq Sasanilər dövlətinin əsasını (226-651) qoydu.

❖ 227-ci ildə Sasanilər dövlətinin tərkibinə daxil edilən Atropatena onun əsas vilayətlərindən birinə çevrildi.

❖ Atropatena Sasanilər dövründə də zərdüştiliyin dini mərkəzi idi.

❖ Albaniya isə 262-ci ildə Sasanilərdən asılı vəziyyətə düşdü.

❖ Bunu I Şapurun (241-272) 262-ci ildə Nəqşi-Rüstəmdəki məbədin divarında həkk etdirdiyi yazı sübut edir.

❖ I Şapurun ölümündən sonra (272-ci ildə) Albaniya müstəqil xarici siyasət yeritməyə başladı.

❖ Albaniya uzun müddət öz daxili müstəqilliyini qoruyub-saxlaya bildi.

❖ 510-cü ildə sasanilər tərəfindən Arşakilər sülaləsinə son qoyulduqdan sonra Albaniyada Sasani mərzbanlığı dövrü başlandı.

❖ I Xosrov Ənuşirəvanın dövründə həyata keçirilmiş inzibati islahata görə Albaniya, Atropatena və İberiya ilə birlikdə şimal mərzbanlığına daxil edildi.

❖ VII əsrin əvvəllərindən etibarən isə mərzbanlıq dövrünü Mehranilər sülaləsinin hakimiyyəti əvəz etdi.

❖ Erkən orta əsrlərdə Albaniyada Çola, Şəki, Lpina, Kambisena, Uti, Arsax, Paytakaran, Sünik vilayətləri var idi.

❖ Dərbənd şəhərindən Beşbarmaq dağına qədər ərazidə Çola vilayəti yerləşirdi.

❖ "Dəmir qapı və yaxud "Alban qapıları" adlanan keçid burada yerləşirdi. Bu keçid şimal xalqlarının hücumlarına qarşı etibarlı müdafiə səddi idi.

❖ Çola ilə Şəki arasındakı Lpina vilayətində Qəbələ, Uti vilayətində isə Bərdə şəhəri yerləşirdi.

❖ Paytakaran Mil-Muğanı, Arsax (Ər-saq) isə əsasən Qarabağın dağlıq hissəsini əhatə edirdi.

❖ Arsaxın əhalisini türklər təşkil edirdi.

## Cənubi Qafqaz uğrunda Sasani-Roma mübarizəsi.

- ❖ III-V əsrlərdə Ön Asiyada ağalıq uğrunda Roma ilə Sasanilər arasında mübarizə gedirdi. Sasani şahı I Şapur 260-cı ildə Roma imperatoru Valerianı məğlub edərək əsir aldı. Bu zaman Albaniya hökmdarı I Vaçe Roma ilə ittifaqda idi.
- ❖ Şapurun ölümündən sonra Albaniya Roma imperatoru Avrelianla (270-275) yaxınaşdı.
- ❖ İranda II Şapurun hakimiyyəti dövründə (309-379) Albaniya artıq Sasanilərlə yaxınlaşmışdı.
- ❖ Albaniyanın Paytakaran vilayətinin hakimi Sanatürk (290-338) Albaniyanın müstəqilliyini qoruyub saxlamaq, Romanın işğalçılıq siyasətinin qarşısını almaq, xristianlığın yayılmasına imkan verməmək mövqeyindən çıxış edirdi. 337-ci ildə Sanatürk erməniləri özünə tabe etdi.
- ❖ Şapur Albaniya hökmdarı Urnayrı himayə edirdi.
- ❖ Urnayr Albaniyanın bütövlüyünü qoruyub saxlamaq naminə və Roma ilə mübarizədə Sasaniləri müdafiə edirdi. 359-cu ildə Amid döyüşündə Sasanilər Albaniyanın köməyi ilə Romanı məğlubiyyətə uğratdı. Amid döyüşündən sonra Albaniyanın Arsax, Marlar ölkəsi (Naxçıvan) və Kaspiana torpaqları geri qaytarıldı. II Şapur xristianlara qarşı təqibi gücləndirdi.
- ❖ Lakin 371-ci ildə Dzirav döyüşündən sonra Albaniya Uti, Şakasen, Girdiman vadisi və Kolt vilayətindən məhrum oldu.

❖ Nəhayət, 387-ci ildə Sasanilər və Roma arasında sülh bağlandı. Sülh müqaviləsinin şərtlərinə görə:

1) Albaniya Sasanilərin nüfuz dairəsinə aid edildi və onun itirilmiş torpaqları qaytarıldı.
2) Ermənistan isə Roma ilə Sasanilər arasında bölüşdürüldü.

**Sasanilərə qarşı mübarizə.**

❖ Sasani şahlarının ağır vergi və köçürmə siyasəti, atəşpərəstliyin zorla yayılması əhalinin narazılığını gücləndirirdi.

❖ Hakim təbəqələr vergi siyasətindən öz şəxsi sərvətlərini artırmaq üçün istifadə edirdilər.

❖ Sasanilərin köçürmə siyasətində isə iki əsas məqsəd var idi:

1. etnik dayaq yaratmaq;
2. torpaqsız İran kəndlilərini torpaqla təmin etmək.

❖ 450-ci ildə Xalxal yaxınlığında, əsasən, xristianlardan ibarət olan üsyançılar Sasaniləri məğlubiyyətə uğratdılar. Qafqaz dağlarından Bürk başda olmaqla lpinlər üsyançılara köməyə gəldilər. Bürk həlak olsa da, üsyançılar «Hun qapıları"nadək olan əraziləri Sasanilərdən təmizlədilər. Üsyançılara qarşı güclü qoşun göndərildi.

❖ 451-ci ildə Maku yaxınlığında Avarayr düzündə baş verən döyüşdə Sasanilər hunların, kateşlərin və gellərin köməyi ilə üsyançıları məğlub etdilər.

❖ Albaniya hökmdarı II Vaçe 457-ci ildə dayısı- Sasani şahı II Yezdəgerdin vəfatından sonra atəşpərəstlikdən imtina edərək daxili siyasətini dəyişdi və xristianlığı qəbul etdi.

❖ O, müstəqil siyasət yeridərək Sasani tabeliyindən çıxdı. II Vaçe Qafqazın 11 yerli hakimi ilə birlikdə yeni Sasani şahı Firuzun hakimiyyətini tanımadı.

❖ Firuz şah Haylandur (onoqur) hunlarını II Vaçeyə qarşı qaldırdı. Onlar 462-ci ildə Albaniyaya daxil oldular və II Vaçe 463-cü ildə hakimiyyətdən əl çəkməyə məcbur oldu. Beləliklə, Sasanilər və hunlar Albaniyanın xristianlaşmasının qarşısını aldılar.

❖ Alban tarixçisi Musa Kalankatlının yazdığı kimi, II Vaçedən sonra Albaniya 30 il hökmdarsız qaldı.

❖ Nəhayət, 493-cü ildə Arşakilər sülaləsinin sonuncu nümayəndəsi III Mömin Vaçaqan Albaniyada hakimiyyətə tam sahib (493-510) oldu. III Mömin Vaçaqan bütpərəstləri və cadugərləri təqib edərək xristianlığın yayılmasına çalışırdı.

❖ O, 498-ci ildə Aquen kilsə məclisi çağırdı. Burada on xristian din xadiminin iştirakı ilə xristian dininə aid qanunlar qəbul edildi və vergilərin miqdarı müəyyənləşdirildi.

❖ 510-cu ildə III Mömln Vaçaqanın vəfatından sonra Sasanilər Albaniya- da yerli hakimiyyəti ləğv etdilər. Bununla da Albaniyada uzunmüddətli Sasani mərzbanlığı dövrü (510-629) başlandı.

# Məzdəkilər hərəkatı.

❖ Hələ III əsrdə Sasanilər dövlətində Mani təlimi pəhləvi dillərində təbliğ edilirdi. Dövlət hakimiyyətinə təhlükə törətdiyi üçün Sasani şahı I Şapur Mani təliminin yayılmasının qarşısını aldı. 276-cı ildə Mani edam edildi.

❖ Mani təlimi 481-529-cu illəri əhatə edən Məzdəkilər hərəkatına təsir göstərdi.

❖Feodal istismarı və Sasani zülmünə qarşı yönəlmiş məzdəkiliyin əsas müddəasını ədalətli cəmiyyət qurmaq və insanlar arasında əmlak bərabərliyi yaratmaq təşkil edirdi.

❖ Məzdək təliminə görə, bu məqsədə yalnız mübarizə yolu ilə nail olmaq mümkün idi. Odur ki xeyirin şər üzərində qələbəsinin mümkünlüyünü inkar edən Manidən fərqli olaraq Məzdək sonda xeyirin qələbəsinə inanırdı.

❖ Sasani şahı I Qubad iri feodalların nüfuzunu zəiflətmək və mərkəzi hakimiyyəti möhkəmləndirmək məqsədilə məzdəkilərdən istifadə etmək qərarına gəldi. O, Məzdəki baş kahin (ali maq) təyin etdi və onun məsləhəti ilə taxıl anbarını əhali üçün açdı.

❖ I Qubad və oğlu I Xosrov 529-cu ildə məzdəkilərə divan tutdular. Məzdək edam edildi. Məzdəkin ideyaları VIII əsrdə başlayan Xürrəmilər hərəkatına öz təsirini göstərmişdir.

**Girdiman (Aqvan) knyazlığı.**

❖ VII əsrin əvvəllərində Albaniyada Mehranilər sülaləsinin hakimiyyəti başlandı. Musa Kalankatlının yazdığına görə, bu sülalənin banisi Mehran Sasani şahı II Xosrovun qohumu idi və şahın atasının ölümündə təqsirli bilindiyinə görə İrandan qaçaraq əvvəl Uti, sonra isə Girdiman vilayətində məskən salmışdı. II Xosrov Mehranın xəzərlərlə birləşməsindən qorxaraq onu bağışlamışdı.

❖ Mehran II Xosrovun qohumu olsa da, Girdimanda VI əsrin 70-ci illərindən yaşamağa başlayan sabir türklərinin nəslindən hesab edilir.

❖ Girdimanda məskunlaşan Mehran yerli əyanlardan 12 nəfərini öldürərək Girdiman vilayətinə sahib olmuşdu.

❖ Onun varisləri VI əsrin sonu-VII əsrin əvvəllərində Girdimanda öz hakimiyyətlərini daha da möhkəmləndirdilər.

❖ Vardanın dövründə (600-615) Girdiman qalası inşa edildi.

❖ Varaz Qriqorun dövründə Mehranilər Bizansla yaxınlaşmaq üçün xristianlığın diofizit qolunu qəbul etsələr də, Sasani əsirliyindən qayıdan Alban katolikosu Viro onu xristianlığın monofizit təriqətinə qaytardı.

❖ Varaz Qriqorun hakimiyyətə gəlməsi ilə Albaniyada Sasani mərzbanlığı dövrünə son qoyuldu. Sasanilər Mehraniləri bütün Albaniyanın hökmdarı kimi tanıdılar.

❖ Beləliklə, Albaniyada Mehranilər sülaləsinin hakimiyyəti dövrü (629-705) başlandı.

❖ Varaz Qriqorun oğlu Cavanşirin hakimiyyəti dövründə (642-681) Mehranilərin hakimiyyəti daha da gücləndi. O, Bərdəni özünə paytaxt seçdi. Lakin onun hakimiyyət dövrü çox mürəkkəb bir tarixi şəraitə təsadüf edirdi.

**III—VII əsrlər Azərbaycan mədəniyyəti.**

❖ Atropatenada Sasani dövlətində tətbiq olunan pəhləvi yazı sistemindən istifadə edilirdi. III əsrdə Albaniyadan Romaya göndərilmiş sənəd və V əsrə aid fərman albanların yazı mədəniyyətindən xəbər verir.

❖ V əsrin əvvəllərində albanların 52 hərfdən ibarət öz əlifbası olmuşdur.

❖ Sasanilər dövründə şimal tayfalarının hücumlarının qarşısını almaq məqsədilə V əsrdə əzəmətli Dərbənd səddi çəkilmişdir.

❖ Erkən orta əsrlərdə Albaniyada Alazan çayı sahilində Torpaqqala, Ağdam ərazisində Govurqala, İsmayıllı rayonu ərazisində Cavanşir, Ağdərə rayonu ərazisində Çarabkert qalaları inşa edilmişdi.

❖ Sasanilərin hakimiyyəti dövründə Azərbaycanın cənubunda atəşpərəstlik, şimalında isə çoxtanrılıq, eləcə də alban türkləri arasında ulu Tanrıya sitayiş - Tanrıçılıq mövcud idi.

❖ I Şapurun hakimiyyəti dövründən başlayaraq Sasani şahları atəşpərəstliyi zorla yaymağa çalışırdılar. Hələ I əsrdən Alban torpaqlarında xristianlıq yayılmağa başlamış, IV əsrdə isə rəsmiləşdirilmişdir.

# AZƏRBAYCAN ƏRƏB XİLAFƏTİNİN TƏRKİBİNDƏ

- ❖ Ərəb qoşunları 633-cü ildə Sasanilər dövlətinin ərazisinə hücum etdilər.
- ❖ Alban hökmdarı Varaz Qriqor oğlu Cavanşirin rəhbərliyi ilə Sasanilərə kömək göndərdi.
- ❖ 636-cı ildə Sasanilərlə ərəblər arasında baş vermiş Kadisiyyə döyüşündə Cavanşir göstərdiyi igidliyə görə Sasani şahı III Yezdəgərd tərəfindən mükafatlandırıldı.
- ❖ Ona mirvari ilə bəzədilmiş qızıl kəmər və qızıl dəstəkli qılınc bağışladı.
- ❖ 638-ci ildə ərəblər Sasani dövlətinin paytaxtı Ktesifon şəhərini mühasirəyə alanda Cavanşir 3 min nəfərlik qoşunla şəhərin müdafiəsində iştirak etdi. Lakin ərəblər bu şəhəri tutdular.
- ❖ Ərəblərə qarşı vuruşmağın mənasız olduğunu görən Cavanşir 7 illik mübarizədən sonra Albaniyaya qayıtdı.
- ❖ Albaniyaya soxulub qarətçiliklə məşğul olan İran feodallarını əzdikdən sonra Cavanşir ərəblərə qarşı Bizans imperatoru ilə birləşmək qərarına gəldi.
- ❖ O, 654-cü və 660-cı illərdə iki dəfə Bizans imperatoru II Konstantinlə görüşmüş və II Konstantin Cavanşiri İberiya sərhədlərindən Araz çayına və "Hun qapıları"na (Dərbəndə) qədər ərazini əhatə edən Albaniya ölkəsinin hökmdarı kimi tanımışdı.

❖ VII əsrin 60-cı illərində xəzərlər Albaniyaya hücum etdilər. Cavanşir 662-ci ildə Kür çayı yaxınlığında onları məğlubiyyətə uğradıb ölkədən qovdu.
❖ 665-ci ildə xəzərlər yenidən Albaniyaya hücum etdilər və qalib gəldilər. Cavanşir ölkəni talanlardan xilas etmək üçün xəzər xaqanı ilə görüşüb, sülh bağladı.
❖ Sülhə görə, Albaniya hər il xəzərlərə xərac verməli, xəzərlər isə bütün əsirləri və qarət olunmuş mal-qaranı geri qaytarmalı idilər.
❖ 661-ci ildə Ərəb xilafətində Əməvilər sülaləsi hakimiyyətə gəldi.
❖ Bu zaman Cavanşir dəyişən tarixi şəraiti nəzərə almalı oldu.
❖ Bizansın zəiflədiyini, xəzərlərə və başıpozuq İran feodallarına qarşı mübarizənin çətinliyini görüb, VII əsrin 60-cı illərinin axırlarında 2 dəfə Şam (Dəməşq) şəhərinə xəlifə I Müaviyənin sarayına getdi və onunla sülh bağladı.
❖Sülhün şərtlərinə görə:

1. Xəlifə Albaniyanın daxili müstəqilliyinə toxunmur;
2. Albaniya ərazisindən alınan vergi üçdəbirə qədər azaldılırdı.

❖ Xəlifənin güzəştə getməsinin səbəbi Albaniyanın əlverişli coğrafi mövqeyə, zəngin sərvətlərə malik olması və Cavanşirin şəxsi nüfuzu idi.
❖ Xəlifə Cavanşirə bir sıra qiymətli hədiyyələr verdi və Sünik knyazlığının idarəsini də ona həvalə etdi.

❖ Cavanşirin ölkə daxilində nisbi əmin-amanlıq yaratması təsərrüfatın inkişafına və abadlıq işlərinə imkan verdi.

❖ Ərəblərin ilk hücumları dövründə Azərbaycanın cənub hissəsi tamamilə tutuldu və ərəb canişini tərəfindən idarə olunmağa başlandı.

❖ Azərbayanın şimalında Albaniyada isə Cavanşir ölkənin daxili müstəqilliyini qoruyub-saxlaya bildi.

❖ Lakin onun siyasətindən narazı qalan bizanspərəst feodallar 681-ci ildə sui-qəsd təşkil edərək onu öldürdülər.

❖ Şair Dəvdək Cavanşirin ölümü münasibətilə mərsiyə yazdı. Hakimiyyətə Varaz Trdat gəldi.

❖ Cavanşirin öldürülməsini bəhanə edən xəzərlər, sonra isə ərəblər Albaniyaya hücum etdilər.

❖ Varaz Trdatla sülh bağlayan xəzərlər geri qayıtdılar.

❖ Ərəblər Bərdəni tutub, 705-ci ildə Cavanşirin sonuncu varisini Şam şəhərində edam etdilər.

❖ Beləliklə, 705-ci ildə Mehranilər sülaləsinə son qoyuldu və Albaniyanın daxili müstəqilliyi ləğv edildi.

❖ Ölkəni ərəb canişini - əmir idarə etməyə başladı.

## Azərbaycanın xilafətin tərkibinə daxil edilməsi.

❖ 642-ci ildə Həmədan və Nəhavənd döyüşündə Sasaniləri növbəti dəfə məğlubiyyətə uğradan ərəblər Azərbaycanın cənub torpaqlarının hakimi İsfəndiyarı Ərdəbil yaxınlığında məğlub edərək əsir götürdülər. İsfəndiyar ərəblərlə sülh bağlamağa məcbur oldu.

❖ Ərdəbil sülhün şərtlərinə görə:

1) Azərbaycan əhalisi ərəblərə can vergisi - cizyə ödəməli idi.
2) Qadınlar, uşaqlar, imkansızlar və b. cizyə ödəmirdilər.
3) Ərəblər əhalinin dininə və adət-ənənələrinə toxunmamalı idilər.
4) Ərəblərə tabe olmayıb ölkəni tərk etmək istəyənlər çıxıb gedə bilərdilər.
5) Könüllü olaraq ərəb ordusunda xidmət edənlər vergidən azad olunurdular.

❖ Ərəb qoşunları Muğanı tutduqdan sonra Xəzər sahili ilə Dərbəndə doğru hərəkət etdilər.

❖ Şirvan hakimi Şəhriyar ərəblərlə sülh bağladı.

❖ Dərbənddən şimalda yerləşən Bələncər yaxınlığında VII əsrin 40-cı illərində (643-cü il – I Bələncər) baş verən döyüşdə ərəblər xəzərlər tərəfindən məğlub edildilər və ərəb sərkərdəsi Əbdürrəhman öldürüldü.

❖ Bir qədər sonra Salmanın başçılığı ilə Azərbaycana yeni ərəb ordusu göndərildi.

❖ O, Naxçıvanı, Şəkini, Gorusu tutdu, Beyləqan və Bərdə isə xərac vermək şərti ilə müqavilə bağlamağa məcbur oldular.

❖ Qəbələ, Şəmkir, Şirvan və Şabran ərazilərini talan edən ərəb qoşunları Dərbəndə daxil oldular.

❖ 653-cü ildə Bələncər yaxınlığında baş verən döyüşdə ərəblər yenə də xəzərlər tərəfindən məğlub edildilər və ərəb sərkərdəsi Salman öldürüldü.

❖ Albaniyada Məhranilər sülaləsi ləğv edildikdən və Albaniya dövlətinin varlığına son qoyulduqdan sonra, VIII əsrdə Azərbaycan uğrunda başlayan Ərəb-Xəzər müharibələri fasilələrlə 100 ilə qədər davam etdi.

# Azərbaycanda islam dininin yayılması.

❖ Ərəblər Hz. Peyğəmbərin (s.ə.a) və ilk dörd xəlifənin (Hz.Əbu Bəkr, Hz.Ömər, Hz.Osman, Hz.Əli r.a.) göstərişlərinə uyğun əhalini müxtəlif üsullarla (mülayim rəftar, güzəştlər etmək, şülh bağlamaq və s.) islama dəvət edirdilər. Bu işdə ilk dövrlərdə ərəblərin həyata keçirdiyi vergi siyasəti də az rol oynamadı.

❖ Onlar Sasanilərə nisbətən az vergi alırdılar. Digər tərəfdən vahid din və vahid dövlətin mövcudluğu əhalinin təhlükəsizliyi üçün daha əlverişli şərait yaradırdı. İslam dini daha humanist, ümidverici və ədalətli din olduğundan əhali onu qəbul etməyə meyilli idi.

❖ İslam dini Azərbaycanın həm cənubunda, həm də şimalında asan yayıldı. Təkcə xristianların məskunlaşdığı dağlıq və dağətəyi ərazilərdə yeni dinə müqavimət güclü idi.

❖ Digər tərəfdən xristianlar da vahid Allaha c.c. inandıqlarına və "əhli-kitab" olduqlarına görə ərəblər onları təqib etmirdilər.

❖ Onlar ərəblərin tutduqları ərazilərdə yaşaya bilərdilər, lakin can vergisi (cizyə) verməli idilər.

❖ İslam dinini birinci olaraq yoxsullar və bütpərəstlər qəbul etdilər.

❖ Daha mütərəqqi və humanist din olan islamın qəbul edilməsi xalqın mədəni inkişafına müsbət təsir göstərdi.

**Ərəb xilafəti dövründə idarəetmə sistemi.**

- ❖ Ərəblər dövləti idarə etmək üçün Sasani mərzbanlıqlarına bənzər - əmirlik sistemi yaratdılar.
- ❖ Əvvəl əmirliklərin sayı 5, Abbasilər dövründə isə 14 oldu.
- ❖ Azərbaycan torpaqları əvvəlcə dördüncü, sonra isə üçüncü əmirliyə daxil edildi.
- ❖ Əmirliklər mahallara, hər mahal 12 məntəqəyə, hər məntəqə isə 12 kəndə bölünürdü.
- ❖ Əmirliyə başçılıq edən əmir bütün hərbi və mülki hakimiyyəti öz əlində cəmləmişdi.
- ❖ Amil mülki işlərə baxır və vergilərin toplanmasına nəzarət edirdi. Qazı məhkəmə idarəsinin başçısı idi və vəqf işlərinə nəzarət edirdi.
- ❖ Ərəblərin poçt-rabitə sistemi bərid (bəril) adlanırdı. Rabitədə təlim görmüş göyərçinlərdən də istifadə olunurdu.
- ❖ Dövlət məmur aparatında əvvəl islamı qəbul etmiş yerli əyanlar iştirak edirdilər.
- ❖ Sonralar isə ərəblər idarəçiliyi ələ alaraq yerli əyanları idarəetmədən uzaqlaşdırdılar.
- ❖ Ərəblər tərəfindən Azərbaycanın cənub sərhədi Həmədan şəhəri, şimal sərhədi isə Dərbənd şəhəri müəyyən edildi.

❖ Azərbaycanda Ərəb xilafətinin əsas dayağı ordu və məmurlar aparatı idi.
❖ Ərəblər geniş ərazini əldə saxlamaq üçün böyük ordu yaratmışdılar.
❖ Ordu :

1) ərəblərdən,
2) mövlalardan (islamı könüllü olaraq qəbul etmiş yerli əhali) və
3) zimmilərdən (ərəb ordusunda könüllü olaraq xidmət edən xristianlar) ibarət idi.

❖ Şəhərlərdə saxlanan xüsusi hərbi dəstələrdən üsyanları yatırmaq, ictimai asayişi qorumaq, sərhədlərdə isə Bizans və xəzərlərin hücumlarını dəf etmək üçün istifadə olunurdu.
❖ Ərəblər özlərinə etibarlı dayaq yaratmaq və əhalini ərəbləşdirmək məqsədilə köçürmə siyasəti həyata keçirir, on minlərlə ərəb ailəsini Azərbaycana köçürüb ən yaxşı torpaqlarda yerləşdirirdilər.
❖ Ancaq gəlmə ərəblər vaxt keçdikcə yerli əhalinin içərisində "əridilər“.

## Ərəblərin vergi siyasəti. Torpaq mülkiyyəti formaları.

❖ Sasanilərdən fərqli olaraq ərəblər ilk vaxtlar vergilərin adambaşına bölünməsi işinə qarışmırdılar və onları verginin ölkə üzrə ümumi miqdarı maraqlandırırdı.

❖ İki əsas vergi növü var idi:

1. xərac - torpaq vergisi;
2. cizyə - müsəlman olmayanlardan alınan can vergisi.

❖ Müsəlman əhalidən xüms (beşdəbir) və zəkat alınırdı. Zəkat ruhanilərə və imkansızlara sərf olunurdu.

❖ Neft mədənləri və duz gölləri üzərinə də vergi qoyulmuşdu.

❖ Kilsə xristian əhalisini itaətdə saxlamaq üçün xilafətə kömək etdiyinə görə vergidən azad olunur və himayə edilirdi.

❖ İslamın dayağı hesab olunan xəlifə Hz. Əli r.a. (656-661) vergi islahatı keçirmişdi.

❖ O, əsas diqqətini xərac toplamağa deyil, torpağı səmərəli becərməyə yönəltmişdi.

- ❖ Əməvilər sülaləsinin (661-750) hakimiyyəti dövründə, 725-ci ildə əhali, mal-qara və torpaqlar siyahıya alındı.
- ❖ Vergilərin artırılması nəticəsində nəinki kəndlilər, hətta orta və iri feodallar da müflisləşdi.
- ❖ Abbasilər sülaləsinin (750-1258) hakimiyyəti dövründə vergi torpağın əkilib-əkilməməsindən asılı olmayaraq alınırdı.
- ❖ Bu sülalənin nümayəndələrindən biri xəlifə əl-Mənsur acgözlüyünə görə "pul atası” ləqəbi qazanmışdı.
- ❖ Xəlifə Harun ər-Rəşidin dövründə 15 yaşına çatmış hər bir kişi üzərinə vergi qoyulmuşdu.

❖ Ərəb xilafəti dövründə torpaq mülkiyyətinin 5 forması var idi:

1) Dövlət (xəlifə) torpaqları. Bu torpaqlar birbaşa dövlətin ixtiyarında idi.
2) İqta torpaqları. Dövlətə xidmətə görə ayrı-ayrı şəxslərə verilən şərti torpaq mülkiyyəti idi. İqtanın iki forması var idi: bağışlanan iqta və icarəyə verilən iqta. Bağışlanan iqta nəsildən-nəslə keçirdi, icarəyə verilən iqta isə hərbçilərə verilirdi və irsən keçə bilməzdi.

4) Mülk yerli feodalların irsi torpaqları idi. Bu torpaqlar nəsildən-nəslə verilə, bağışlana və satıla bilərdi.

4) Vəqf. Dini idarələrin, məscid və mədrəsələrin ixtiyarında olan torpaqlar. Vəqfi satmaq və bağışlamaq olmazdı.

5) İcma. Kəndlilərin becərdikləri torpaqlar idi. Vergi və mükəlləfiyyətlərin əsas ağırlığı bu torpaqların üzərinə düşürdü.

## Xilafət əleyhinə ilk çıxışlar.

- ❖ Xilafətin soyğunçu vergi siyasəti, məmur özbaşınalığı əhalinin narazılığını artırırdı.
- ❖ Yalnız yoxsullar deyli, vəzifədən uzaqlaşdırılan, torpaq hüququ və imtiyazları məhdudlaşdırılan feodallar da narazı idi.
- ❖ VIII əsrin ortalarında xilafətin mərkəzində Əməvilər sülaləsinə qarşı baş verən üsyanın təşkilatçısı xaricilər təriqəti oldu.
- ❖ Xaricilər xəlifənin xalq tərəfindən seçilməsini tələb edirdilər.
- ❖ Azərbaycanda xilafətə qarşı çıxışlar 748-752-ci illərdə geniş vüsət aldı.
- ❖ Hərəkata yerli feodallar başçılıq etsə də, onda əhalinin bütün təbəqələri iştirak edirdi.
- ❖ 748-ci ildə Beyləqanda başlanan üsyan tezliklə Bərdə və Ərdəbilə də yayıldı. Üsyançılar ərəb əmirini əsir aldılar. Lakin xilafətin göndərdiyi yəni əmir üsyanı yatırdı.
- ❖ VIII əsrin ikinci yarısında Azərbaycanda ərəblərə qarşı çıxışlar yenidən gücləndi.
- ❖ Təkcə xəlifə Harun ər-Rəşidin dövründə 15-dən çox üsyan baş vermişdi. Üsyanların əsas mərkəzi Beyləqan və Bərdə idi.
- ❖ Bu zaman Dərbənd əhalisi xüsusilə fərqlənirdi.
- ❖ Onlar ərəblərə qarşı xəzərlərlə ittifaqa girirdilər.

## Xürrəmilər hərəkatının başlanması.

❖ Ərəb xilafətinə qarşı mübarizənin ən yüksək forması Xürrəmilər hərəkatı idi. Xürrəmilər ("xürrəm" — pəhləvi dilində "əbədi od", "əbədi günəş" deməkdir) ədalətsizliyin kökünü sosial və mülki bərabərsizlikdə görürdülər.

❖Onların şüarlarında torpaq və istehsal vasitələrini hakim təbəqələrdən almaq tələbi var idi.

❖ Xürrəmilər ümumi bərabərlik uğrunda mübarizə apararaq maddi nemətlərin insanlar arasında bərabər bölüşdürülməsini, ədalətli cəmiyyət qurulmasını bir məqsəd kimi qarşıya qoymuşdular.

❖ Bu ideyalar onları məzdəkilərlə yaxınlaşdırırdı.

❖ Lakin xürrəmilər məqsədlərinin aliliyinə görə öz sələflərindən fərqlənirdilər.

❖ Onlar milli əsarətə qarşı çıxaraq Azərbaycanın istiqlaliyyətini bərpa etmək istəyirdilər.

❖ Xürrəmilər islamın bəzi ehkamlarını inkar edir, Azərbaycanın qədim dini ayinlərini ona qarşı qoyurdular.

❖ Xürrəmilər hərəkatı- islamın bəzi ehkamlarına, ərəb əsarətinə və feodal zülmünə qarşı yönəlmiş xalq hərəkatı idi.

❖ Onlar tarixdə ilk dəfə olaraq qırmızı bayraq qaldırmışdılar.

❖ Xürrəmilərin ilk çıxışları 778-ci ildə, ikinci çıxışları isə 808-ci ildə olmuşdu.
❖ 816-cı ildə Cavidanla Əbu İmran arasındakı çəkişmə onların hər ikisinin ölümü ilə nəticələndi.
❖ Həmin ildən etibarən xürrəmilərin vahid rəhbəri Babək oldu.

**Babəkin başçılığı ilə xalq azadlıq hərəkatı.**

❖ Babək (798-838) Ərdəbil yaxınlığında Bilalabad kəndində anadan olmuşdu. Onun bir yaşı olanda atası öldürülmüş və anası onu çətinliklə böyütmüşdü. Kiçik yaşlarından çoban, sarban, usta şagirdi olmuş Babək, xalqın ərəb məmurlarının özbaşınalıqlarından necə əziyyət çəkdiyini öz gözləri ilə görmüşdü.
❖ Cavidan Babəkin gələcəkdə bacarıqlı bir döyüşçü ola biləcəyini görmüş və onu anasının razılığı ilə Bəzz qalasına gətirmişdi.
❖ Cavidanın ölümündən sonra Bəzz qalasının sahibinə və xürrəmilərin rəhbərinə çevrilən Babək əsarətdən azad olmaq yolunu xalqı ayağa qaldırmaqda görürdü.
❖ Babəkin ən qüdrətli sərkərdələri Müaviyə, Abdulla (Babəkin qardaşları), Tarxan, Adin, Rüstəm və İsma idi. Onun döyüşçüləri arasında türklərlə yanaşı, digər xalqların nümayəndələri də var idi.

- Azadlıq mübarizəsinin əsas hərəkətverici qüvvəsi kəndlilər idi.
- Hərəkatda şəhər yoxsulları, sənətkarlar, hətta feodallar da iştirak edirdilər.
- Akademik Z.Bunyadova görə, Babəkin erməni müttəfiqləri olmamışdır.
- Onun müttəfiqləri yerli Alban mənşəli knyazlar idi.
- İran tarixçisi Səid Nəfəsi etiraf edir ki, Xürrəmilər hərəkatının mərkəzi Azərbaycan olmuşdur.
- Azərbaycan və Deyləmdə Babəkin təxminən 300 min tərəfdarı var idi.
- 819-cu ildə Babək ərəblər üzərində ilk qələbəsini qazandı.
- O, IX əsrin 20-ci illərində Süniki, Bərdəni, Beyləqanı və Qarabağı ərəblərdən azad etdi.
- 829-cu ildə baş verən I Həştadsər döyüşündə Babək ərəblər üzərində parlaq qələbə qazandı.
- Xəlifənin sevimli sərkərdəsi Məhəmməd əl-Tusi öldürüldü. Ərəblərin Bəzz qalasını ələ keçirmək niyyəti boşa çıxdı.

❖ 830-cu ildə baş vermiş I Həmədan döyüşündə də Babək qalib gəldi. Bu onun nizami ərəb orduları üzərində sayca beşinci qələbəsi idi.

❖ IX əsrin 20-ci illərinin sonu - 30-cu illərinin əvvəlləri azadlıq mübarizəsinin uğurlu dövrü idi.

❖ Babəkin qələbələrinin əsas səbəbi onun xilafətə qarşı milli-azadlıq mübarizəsi aparmasında və xalqın birliyində idi.

❖ Xilafətin uğursuzluğunun digər səbəbləri Suriya və Misirdə də üsyanların baş verməsi, Bizansla aparılan müharibələr idi.

❖ Xəlifə əl-Məmun vəfat edərkən öz varisi Mötəsimə Babəkə daha çox diqqət yetirməyi, ona qarşı amansız və tədbirli adam göndərməyi vəsiyyət etmişdi.

❖ Xəlifə Mötəsimin göndərdiyi ordu 833-cü ildə II Həmədan döyüşündə xürrəmilər üzərində qələbə qazandı. Bu, Babəkin ilk məğlubiyyəti idi.

❖ Bundan sonra əsas diqqəti Babəkə yönəldən xəlifə:

1) Bizansla müharibəni dayandırdı,
2) yolları sahmana saldı, ordunun kadr və
3) ərzaq təchizatına diqqəti daha da artırdı.

❖ 835-ci ildə xəlifənin türk mənşəli sərkərdəsi Afşin Babəkə qarşı göndərilən qoşunlara baş komandan təyin edildi.

❖ Afşin Babəkə qarşı bir sıra taktiki və təşkilatı tədbirlər gördü:

1) ordunun döyüş ruhunu qaldırdı,
2) öz qərargahını Bəzz qalasına yaxın olan Bərzəndə köçürdü,
3) əks-kəşfiyyatı gücləndirdi.

❖ İsma və Tarxan adlı sərkərdələrinin aradan götürülməsi Babəkə ağır zərbə oldu.

❖ Afşinin tədbirlərindən qorxuya düşən iri feodallar, o cümlədən Babəkin sabiq müttəfiqləri Səhl ibn-Sumbat, ibn Bəis, Əbu Musa ondan uzaqlaşdılar.

❖ Bununla belə, təcrübəli Babək 836-cr ildə II Həştadsər döyüşündə Afşinin sərkərdəsi Buğa üzərində qələbə qazandı.

❖ 837-ci ildə Afşin Bəzz qalasını mühasirəyə alaraq Babəkə sülh təklif etdi.

❖O, Babəkdən ərəblərin müttəfiqi kimi Bizansa qarşı müharibədə istifadə etmək niyyətində idi.

❖Lakin Babək sülh təklifini və ona verilən vədləri qəbul etməyib bunu xəyanət kimi qiymətləndirdi.
❖ 837-ci il avqustun 26-da Afşinin əmri ilə Bəzz qalasına hücum başlandı. Qalanın müdafiəsinə Adin başçılıq edirdi. Daşatan mancanaqlardan və neftlə isladılmış oxlardan istifadə edən ərəblər Bəzz qalasının müdafiəsini yarıb qalanı tutdular.
❖ Mühasirədən çətinliklə çıxan Babək Arana gəldi. O, Bizans imperatorunun yanına gedib, yeni qüvvə toplamaq istəyirdi.
❖ Ərəblər Babəkin başı üçün 2 milyon dirhəm təyin etdilər.
❖ Babək Bazarçayın sol sahilində, keçmiş müttəfiqi, Şəki qalasının sahibi Səhl ibn Sumbatın xəyanəti nəticəsində ələ keçirildi.
❖ 837-ci il sentyabrın 15-də Afşin Babəki xəlifə Mötəsimin yanına Samirə şəhərinə yola saldı. Bundan əvvəl o, Babəkin son arzusunu, Bəzz qalası ilə vidalaşmaq xahişini yerinə yetirdi.
❖ Babəki 838-ci il yanvarın 4-də Samirə şəhərinə gətirdilər və martın 14-də edam etdilər.
❖ O, edam zamanı misilsiz dözüm nümayiş etdirdi. Xəlifə Mötəsim belə dəhşətli edamla digər üsyançıları qorxutmaq istəyirdi.
❖ Babəkin kəsilmiş başı üsyançıları qorxutmaq üçün Xorasana göndərildi.
❖ Onun qardaşı Abdulla isə Bağdadda edam edildi.

- ❖ Babəkin məğlub olmasının bir sıra səbəbləri var idi:

1) vaxtilə Babəkə qoşulmuş imtiyazlı təbəqənin nümayəndələrinin dönüklüyü və xəyanəti;
2) cəsur türk döyüşçülərinin və sərkərdələrinin (Afşin, Əbu Sac və b.) Babəkə qarşı müharibəyə cəlb edilməsi;
3) ərəb ordusunun verdiyi ağır itkilərə baxmayaraq, onun sıralarının üç qitədə yerləşən xilafətin böyük insan ehtiyatı hesabına yeni qüvvələrlə təmin olunması.

- ❖ IX əsrin 30-cu illərinin sonu - 40-cı illərinin əvvəllərində Kür-Araz vadisində Babəkin keçmiş müttəfiqi Əbu Musanın başçılığı altında ərəblərə qarşı yeni üsyan baş verdi.
- ❖ Üsyançıların iqamətgahı Qarabağda Ktiç qalası idi.
- ❖ Ərəb sərkərdəsi Buğa hiylə işlədərək Əbu Musanı danışıqlara dəvət etdi.
- ❖ O, toxunmamaq vədini pozaraq Əbu Musanı əsir aldı və xilafətin paytaxtına göndərdi.
- ❖ Xürrəmilər hərəkatı məğlub olmasına baxmayaraq Ərəb xilafətini kökündən sarsıtdı, yeni üsyanlara səbəb oldu.
- ❖ Hərəkatın məşhur rəhbəri Babəki Karfagen sərkərdəsi Hanniballa müqayisə edirdilər.

# Azərbaycan xalqının təşəkkülü

❖ Dünyanın başqa xalqları kimi, Azərbaycan xalqının da təşəkkülü üçün dörd əsas şərt vacib sayılır:

1. ərazi birliyi;
2. dil birliyi;
3. mədəniyyət vahidliyi;
4. məhəlli-iqtisadi əlaqələrin mövcudluğu.

❖ Təbii ki, bu şərtlərin yetişməsi üçün əsrlərlə vaxt lazım gəlmişdir.

❖ Azərbaycan xalqı qədim çağlardan çox geniş torpaqları əhatə edən böyük bir ərazidə formalaşmışdır.

❖ Bu ərazinin sərhədləri cənubda Qızılüzən çayından başlayıb, şimalda Dərbənd də daxil olmaqla Qafqaz dağlarına qədər uzanırdı.

❖ XIX əsrə qədər qədim Oğuz yurdu olan indiki Ermənistan - İrəvan da Azərbaycanın tərkibində idi.

❖ Azərbaycan qədimdən türk yurdudur və türklər bu torpağın köklü əhalisidir. Bunu antik müəlliflər və orta əsr ərəb qaynaqları da tamamilə təsdiq edir.

❖ Ərəb mənbələrində Məhəmməd Peyğəmbərin s.a.s (570-632) sağlığında Yəmən qoşununun Azərbaycanda türklərlə savaşması haqqında məlumat vardır.

❖ Xəlifə Müaviyə (661-680) Übeyd adlı müşavirindən Azərbaycan haqqında nə bildiyini soruşduqda o belə cavab vermişdi: *«Ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-biri ilə qaynayıb-qarışmış və təkmilləşmişlər».*

❖ Azərbaycan xalqının dili türk dilləri ailəsinin Altay budağının Oğuz qrupuna daxildir.

❖ Azərbaycan ərazisində başqa dildə danışan etnoslar da yaşayırdılar.

❖ Həmin etnosları bir-birinə bir çox ümumi cəhətlər bağlayır:

1) Bunlardan biri də onların eyni ideologiyada - vahid dində birləşməsidir.
2) Digər birləşdirici amil onların xarici hücumlara qarşı mübarizədə birlikdə müqavimət göstərmələridir.

❖ İslam dini türk və qeyri-türk etnoslarının vahid xalq kimi formalaşmasında və ümumi mənəvi-mədəni dəyərlər əsasında birləşməsində misilsiz rol oynamışdır.

❖ VII—VIII əsrlərdə Azərbaycan xalqının formalaşması üçün əsas şərtlərin hamısı meydanda idi.

❖ Bu dövrdə Azərbaycan xalqı və onun ana dili olan türk dili təşəkkül tapmışdır.

❖ 1300 il bundan əvvəl türklərin yaşadıqları bütün torpaqlarda - Dəmir-qapı Dərbənddən cənub torpaqlarına, qərbdə Anadolu torpaqlarına, Diyarbəkirə, Xəzərdən Qara dəniz sahillərindəki Abxaz elinə və Trabzona qədər geniş ərazidə yayılmış **«Kitabi - Dədə Qorqud»** dastanı xalqımızın ana qaynağıdır.

❖ Dastan onun yayıldığı geniş ərazidə vahid dildə - türk dilində danışan böyük bir xalqın - Azərbaycan xalqının yaşadığını sübut edir.

❖ «Kitabi - Dədə Qorqud» dastanının dili təmiz türk dilidir və oğuz türkləri məhz bu dildə danışırdılar.

❖ Maraqlıdır ki, bu dastanda olan 4530 söz- dən 4044-ü, yəni 90%-ə yaxını türk sözüdür.

❖ Halbuki XVI-XIX əsrlər Azərbaycan ədəbi dilinin görkəmli nümayəndələri olan Şah İsmayıl Xətai, Məhəmməd Füzuli və Seyid Əzim Şirvaninin «Divan»larında sözlərin yarıdan çoxu ərəb və fars sözləridir.

❖ Dədə Qorqud dastanının yayıldığı dövrdə (VII—VIII əsrlərdə) Azərbaycan əhalisinin dili sonrakı çağlardan daha təmiz olması ilə seçilirdi.

## AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN BƏRPASI (IX-XI əsrlər)

**Şirvanşahlar dövləti.**

- Ərəb xilafətinə daxil olan ölkələri bürüyən azadlıq hərəkatları, yerlərdə əyalət hakimlərinin güclənməsi IX əsrdə xilafəti zəiflətdi.
- Onun ucqarlarında xırda feodal dövlətləri - əmirliklər yaranmağa başladı.
- Bu dövlətləri ayrı-ayrı sərkərdələr - keçmiş ərəb canişinləri idarə edirdilər.
- Belə bir şəraitdə Azərbaycan torpaqlarında bir-birinin ardınca Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər və Rəvvadilər dövlətləri yarandı.

Yeni yaranmış dövlətlərdən heç biri uzunmüddətli sabitlik yarada bilmədiyindən IX-XI əsrlər Azərbaycan tarixində feodal dağınıqlığı və ara müharibələri dövrü kimi səciyyələnir.

- Ərəb xilafətinin dağılması gedişində yaranan dövlətlərdən birincisi **Şirvanşahlar dövləti** (861-1538) idi.
- Şirvan Azərbaycanın şimal-şərqində bir vilayət olub, Dərbənddən Kür çayına qədər Xəzər sahillərindəkl əraziləri əhatə edirdi.
- Mərkəzi Şirvan şəhəri idi.
- Bu əraziləri ərəb mənşəli Məzyədilər sülaləsi idarə edirdi.

❖ Məzyədilərin nümayəndəsi Yezid ibn Məzyəd, xəlifə Harun ər-Rəşidin hakimiyyəti dövründə (786-809) Cənubi Qafqazın hakimi idi.

❖ Məzyədilər əvvəl Aranda paytaxtı Bərdə olan yarımmüstəqil feodal dövləti - əmirlik yaratmışdılar.

❖ O zaman Bərdə Cənubi Qafqazda ərəb idarəçiliyinin mərkəzi idi.

❖ 859-cu ildə Məhəmməd ibn Yezid Gəncəni bərpa etdirib, iqamətgahını buraya köçürmüşdü.

❖ IX əsrin sonlarında Aranın çox hissəsi, o cümlədən Bərdə Sacilərin əlinə keçdiyindən Məzyədilər Şirvana köçdülər.

❖ 861-ci ildə Məzyədilər sülaləsinin nümayəndəsi Heysam ibn Xalid:

✓ Şirvanın müstəqilliyini elan etdi və

✓ Şirvanşah titulu daşımağa başladı.

❖917-ci ildə Lahicanşahlıq Şirvanşahlara birləşdirildi.

❖918-ci ildə Şirvanşah Əbu Tahir dövlətin paytaxtını Şirvan şəhərindən Şamaxıya köçürdü.

❖ Şirvanşahlar X əsrdə:

✓ Qəbələni (981-982),

✓ Bərdəni (982), Şabranı (983), və

✓ ərəb mənşəli Haşimilər tərəfindən idarə edilən «Dəmir qapı» Dərbəndi (988) ələ keçirdilər.

❖ Onlar Dərbənd səddini və şəhərin qala divarlarını təmir və bərpa etdirib möhkəmləndirdilər.

❖ Dərbənddən sonra Xursan və Tabasaran Şirvanşahlar dövlətinə birləşdirildi.

❖ Şəki və Sənariyyə də Şirvanşahlardan asılı vəziyyətə düşmüşdü.

❖ Şirvanşahlar dövlətinin yaranması Azərbaycan ərazisində dövlətçiliyin dirçəlməsinə, şimaldan Azərbaycan torpaqlarına olan hücumların dəf edilməsinə şərait yaratdığına görə mütərəqqi hadisə idi.

**Sacilər dövləti**
**(879-941)**

- Sacilər dövlətinin əsasını Afşin ləqəbi daşıyan, əslən Mərkəzi Asiyanın Usruşana vilayətinin qədim türk nəsillərindən olan Sacilər (879-941) qoymuşdur.
- Məşhur sərkərdə Afşin Heydər ibn Kavus bu nəsildən idi.
- Xilafət Bizansla sərhədləri möhkəmləndirmək üçün Mərkəzi Asiyadan Azərbaycana və Şərqi Anadoluya yeni-yeni türk tayfaları köçürürdü.
- Sacilər sülaləsinin banisi Əbu Sac Divdad xilafət ordusunda xidmət edən məşhur türk sərkərdələrindən biri idi.
- Dövlətə xidmətlərinə görə Azərbaycanın idarəsi Sacilərə həvalə edilmişdi.
- Onlar xilafətin xəzinəsinə 120 min dinar xərac ödəyirdilər.
- IX əsrin sonlarında Əbu Sac Divdadın oğlu Məhəmmədin adından pul kəsilməsinə başlandı.

❖ Məhəməddin qardaşı Yusif ibn Əbu Sac :
✓ 912-ci ildən xilafətə xərac göndərməkdən tamamilə imtina etdi və
✓ Şirvanşahları özündən asılı vəziyyətə saldı.
❖ Beləliklə, Sacilər dövləti X əsrin əvvəlində:
✓ cənubda Zəncandan şimalda Dərbəndə qədər,
✓ şərqdə Xəzər dənizindən qərbdə Ani və Dəbil şəhərlərinə qədər olan əraziləri əhatə edirdi.
❖ Sacilərin adından pul kəsilməsi onların müstəqil olduğunu sübut edir.
❖ Sacilər dövlətinin paytaxtı əvvəl Marağa, sonra Ərdəbil şəhəri idi.
❖ IX əsrin 80-ci illərindən X əsrin 40-cı illərinədək bütün Azərbaycan torpaqlarının vahid dövlətin tərkibində olması ölkə miqyasında iqtisadi, mədəni əlaqələrin inkişafına və Azərbaycan türk xalqının formalaşmasına müsbət təsir göstərdi.

## Salarilər dövləti
## (941-981)

❖ Deyləm (Gilan) hakimi Mərzban ibn Məhəmməd 941-ci ildə Azərbaycan feodal qrupları arasındakı çəkişmələrdən istifadə edərək sonuncu Saci hökmdarı Deysəmi taxtdan salıb, Salarilər dövlətinin (941-981) əsasını qoydu.

❖ Dövlətin paytaxtı Ərdəbil şəhəri oldu.

❖ Salarilər Şirvanşahları özlərindən asılı vəziyyətə salmışdılar.

❖ Ən qüdrətli dövrlərində Salarilər dövlətinin sərhədləri:

✓ şimalda Dərbənddən

✓ cənubda Dəclə və Fərat çaylarının yuxarı axarlarına qədər uzanırdı.

❖ Salarilər ölkənin iqtisadi və mədəni inkişafına, ticarət əlaqələrinin genişlənməsinə diqqət yetirirdilər.

❖ Xəzər dənizində onlara məxsus gəmilər üzürdü.

❖ Bununla belə, Mərzban ibn Məhəmmədin ölümündən sonra onun oğlanları və qardaşı Vəhsudan arasındakı çəkişmələr dövlətin süqutunu sürətləndirdi.

## Rəvvadilər dövləti.

❖ Təbriz, Marağa və Əhər hakimi Əbülhica 981-ci ildə sonuncu Salari hökmdarı İbrahimi taxtdan salıb, Rəvvadilər dövlətinin əsasını qoydu.

❖ Bu sülalənin banisi ər-Rəvvad xəlifə Əlinin hakimiyyəti dövründə Bəsrə və Kufədən Azərbaycana köçürülən Əzdilər nəslindən idi.

❖ VIII əsrin sonunda Rəvvadilər Azərbaycanın cənubunda yarımmüstəqil əmirlik yaratmışdılar.

❖ Salarilər dövlətinin varlığına son qoyan Rəvvadilər Azərbaycanın cənub torpaqlarını öz hakimiyyətləri altında birləşdirdilər.

❖ Sonra Muğan hakimliyini də asılı vəziyyətə saldılar.

❖ 1028-ci ildə Sultan Mahmud Qəznəvi tərəfindən sıxışdırılan iki min oğuz ailəsi Rəvvadi hökmdarı Vəhsudanın (1020-1059) icazəsi ilə Azərbaycan ərazisində məskən saldı.

❖ Rəvvadilər dövlətinin paytaxtı Ərdəbildən Təbrizə köçürüldü.

❖ Təbriz Şərq ölkələrini Aralıq və Qara dəniz sahilləri ilə, həmçinin Dərbənd keçidi vasitəsilə Volqaboyu və Şərqi Avropa ilə birləşdirən ticarət yollarının qovşağında yerləşirdi.

❖ Bu isə onun əhəmiyyətini daha da artırırdı.

Rəvvadilər dövləti 1054-cü ildə səlcuqlardan asılı vəziyyətə düşdü.

# Şəddadilər dövləti

- ❖ Məhəmməd ibn Şəddad 951-ci ildə Dəbil əmirliyini yaratdı.
- ❖ Şəddadilər 971-ci ildə isə Gəncəni tutaraq müstəqil Şəddadilər dövlətinin əsasını qoymuşdular.
- ❖ Şəddadilər mənşəcə müsəlman kürdləri idi.
- ❖ Gəncə yeni dövlətin paytaxtı oldu.
- ❖ Fəzl ibn Məhəmmədin hakimiyyəti dövründə (985-1030) Şəddadilər dövlətinin qüdrəti artdı.
- ❖ O, 1027-ci ildə hərbi məqsədlə Araz çayı üzərində Xüdafərin körpüsünü saldırdı.
- ❖ Fəzl ibn Məhəmməd Rəvvadilərlə və Tiflis müsəlman əmiri Əbulfəzl Cəfərlə dostluq münasibətləri saxlayırdı.
- ❖ O, Şirvanşahlarla qohumluq əlaqələrinə malik idi.
- ❖ Şəddadilər oğuzlarla birlikdə:

✓ 1037-ci ildə Dəbili Bizans-erməni,

✓ 1038-ci ildə Tifiisi Bizans-gürcü qüvvələrinin hücumlarından qorudular.

- Şəddadilər dövləti Əbüləsvar Şavurun hakimiyyəti dövründə (1049-1067) daha da gücləndi.
- Bu zaman gürcü çarı IV Baqrat Tiflisi tutmağa çalışırdı.
- Bu məqsədlə o, 1062-ci ildə alanlarla ittifaq bağlayıb onları Azərbaycana hücuma təhrik etdi.
- Şavur müdafiə məqsədilə Gəncənin ətrafında hasar və xəndəklər çəkdirdi.
- 1063-cü ildə şəhərə qala qapıları düzəltdirdi.
- Gəncənin məşhur qala qapılarının ustası İbrahim Osmanoğlu idi.
- Səlcuqların yürüşləri dövründə Şəddadilər onlardan asılı vəziyyətə düşdü.

# Slavyanların qarətçi yürüşləri

❖ IX əsrin sonu - X əsrin əvvəllərində şərq slavyanlarının Azərbaycana qarətçi yürüşləri başladı.
❖ Ərəb mənbələrində slavyanlar, adətən, ruslar adlandırılırlar.
❖ 909-cu ildə slavyanlar yürüş edərək Xəzər dənizindəki Abaskun adasını tutdular.
❖ 910-cu ildə Sarı adasında talanlar törətdilər.
❖ Bu hücum Gilanşahın və Şirvanşahın qüvvələri tərəfindən dəf edildi.
❖ 914-cü ildə slavyanların Xəzər sahillərinə daha dəhşətli yürüşü baş verdi.
❖ Onlar xəzərlərin torpağından keçdikləri üçün ələ keçirəcəkləri qənimətin yarısını Xəzər xaqanına verməyi vəd etmişdilər.
❖ Slavyanlar vədlərinə əməl edərək Azərbaycanın Xəzərsahili ərazilərini talan edib, geri qayıdanda qənimətin yarısını Xəzər xaqanına göndərdilər.
❖ Lakin xaqanlığın müsəlman-türk əhalisi din qardaşlarını əsir aparan ruslarla döyüşə girib, onlara divan tutdu.
❖ Bundan sonra 30 il slavyanların Xəzər sahillərinə yürüşü olmadı.

# BƏRDƏ FACİƏSİ

- ❖ 944-cu ildə Kiyev knyazı İqorun drujinaları və muzdlu dəstələri "Aranın anası" adlandırılan Bərdəni ələ keçirib, Azərbaycanda möhkəmlənmək üçün yeni yürüşə başladılar.
- ❖ Bu zaman Bərdə Salarilər dövlətinin tərkibində idi.
- ❖ Salarilərin Bərdədə hərbi qüvvəsi az olduğuna görə slavyanlar şəhəri ələ keçirib, onu amansız şəkildə qarət etdilər.
- ❖ Salari hökmdarı Mərzban ibn Məhəmməd 30 min nəfərlik qüvvə ilə Bərdəni mühasirəyə alsa da, Mosul hakiminin Xoy və Salmas şəhərlərini ələ keçirməsi xəbərini aldığından geri qayıtmağa məcbur oldu.
- ❖ Əhalinin müqavimətini və mübarizə əzmini tam şəkildə qıra bilməyən, vaxt uzandıqca daha çox tələfat verən və yoluxucu xəstəliklərdən qırılmağa başlayan slavyanlar Bərdəni tərk etdilər.
- ❖ Bərdə şəhəri 944-cü il faciəsindən sonra bir daha özünə gələ bilmədi.
- ❖ Sənətkarlıq və ticarət tənəzzülə uğradı.
- ❖ Şəddadilərin Gəncəni paytaxt seçməsi Bərdənin süqutunu daha da sürətləndirdi.

❖ 987-ci ildə Dərbənd hakimi ona itaət etməyən yerli əyanlara qarşı mübarizədə slavyanlardan yardım istədi və onları Dərbəndə dəvət etdi.

❖ O öz yanında slavyanlardan ibarət mühafizə dəstəsi saxlayırdı.

❖ 1030-cu ildə slavyanlar Şirvanşahların qoşunlarını Bakı yaxınlığında məğlubiyyətə uğradaraq burada düşərgə saldılar.

❖ Bu zaman Şəddadi hökmdarı Fəzl ibn Məhəmmədin oğlu Musa Beyləqanda qiyam qaldırmış qardaşını (Əskuyəni) məğlub etmək üçün slavyanları köməyə çağırdı və qardaşına qalib gəldi.

❖ 1032-1033-cü illərdə ruslar, alanlar və sərirlərlə birlikdə Şamaxını talan etdilər.

❖ Lakin onlar geri qayıdarkən Dərbənd hakimi Mənsur tərəfindən məğlub edildilər.

❖ Slavyanların Xəzərsahili ərazilərə qarətçi yürüşləri sonralar da davam etdi.

❖ Bütün ölkə ərazisini əhatə edən uzunmüddətli vahid dövlətin olmaması, feodal dağınıqlığı və siyasi hərc-mərclik, dənizdə hərbi donanma yaradılmaması slavyanların basqınlarının qarşısını almağa mane olurdu.

## IX – XI əsr MEMARLIĞI

**IX-XI əsrin əsas memarlıq abidələri:**

1. 920-ci ildə Şamaxının Sündü kəndində tikilmiş günbəzli məscid,
2. IX – X əsr Naxçıvanda Əlincə qalası,
3. Lerikdə Oğlanqalan,
4. X əsrdə Ağoğlan çayı sahilində tikilmiş Amaras monastırı,
5. 1027-ci ildə Araz çayı üzərində salınmış Xudafərin körpüsünü və
6. 1063-cü ilə aid İbrahim Osmanoğlu tərəfindən hazırlanmış məşhur Gəncə qala qapıları.